1 iyul 2021-ci il, cümə axşamı XALQ QƏZETİ

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 188** **Bakı şəhəri, 30 iyun 2021-ci il**

***Görkəmli elm xadimi Lütfi Zadənin xatirəsinin əbədiləşdirilməsi haqqında***

"Görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2450 nömrəli Sərəncamının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Bakı şəhərinin Nəsimi rayonunda yerləşən Texniki-humanitar liseyə Lütfi Zadənin adı verilsin.

**2.** Bakı Şəhər İcra Hakimiyyəti Lütfi Zadənin Bakı şəhərində yaşadığı binaya (Əlövsət Quliyev küçəsi, 79) xatirə lövhəsinin vurulmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***